# Təbrik



Hörmətli İradə Əlili!

Sizi - tanınmış alim və publisisti yubileyiniz münasibətilə təbrik edirik.

Siz 1964-cü ildə Sabirabad rayonunda doğulmuş, 1971-ci il Sabirabad rayon 1 saylı orta məktəbinə getmiş, 1981-ci il orta məktəbi bitirdikdən sonra Bakı Mədəni Maarif məktəbinin Kitabxanaçılıq işi ixtisasına qəbul olunmuş və 1986-cı ildə oranı fərqlənmə diplomu ilə bitirmisiniz. Sonra Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin qiyabi şöbəsində təhsil almısınız. 2023-cü ildə tarix üzrə fəlsəfə doktoru elmi dərəcəsini almısınız. 2018-ci ildən Yazıçılar Birliyinin üzvüsünüz.

Əmək fəaliyyətinizə 4 yanvar 1982-ci ildə Sabirabad rayon Tədris kobinatında başlamısınız.

Sonralar Azərbaycan Dövlət Elmi Tibb Kitabxanasında əvvəlcə kitabxanaçı, şöbə müdiri vəzifəsinə təyin edilmisiniz. 2010-cu ildən kitabxananın həmkarlar komitəsi sədri vəzifəsini icra edirsiniz. İkinci iş yeri kimi 2012-ci ildən Bakı Dövlət Universitetinin İnformasiya və sənəd menecmenti fakültəsinin saat hesabı müəlliməsi kimi fəaliyyət göstərirsiniz.

Siz PTİYİB-nin icra etdiyi 6 layihədə layihə rəhbəri və ya köməkçi qismində fəal iştirak etmisiniz. 2020-ci ildə Peşəyönümlü Təhsilin İnkişafına Yardım İctimai Birliyi tərəfindən hazırlanmış "Gələcək müəllimlərin məktəbdə peşəyönümü işinin təşkilinə hazırlanması üzrə onlayn maarifləndirici tədbirlərin təşkili" layihəsinin və 2021-ci ildə Ümumtəhsil məktəblərində "Gələcəyin peşələri" mövzusunda peşəyönümü tədbirlərin layihəsinin rəhbəri olmusunuz.

Qarabağ mövzusunda həqiqətləri əks etdirən bir çox kitabların müəllifisiniz. Bu kitablar müxtəlif xarici dillərə tərcümə olunub.

"Xocalı: Şəhidlər danışır", "Laçın həsrətim", "Zəfər yolu" və s. kitablarınız nəşr olunub.

Hörmətli İradə Əlili!

Sizi bir daha yubileyiniz münasibətilə təbrik edir, sizə yeni-yeni yaradıcılıq uğurları arzulayırıq.

**Azərbaycan Yazıçılar Birliyi**

Ədəbiyyat qəzeti.- 2024.- 20 aprel, № 13-14.- S. 13.